***Rəcəbli H.***

# H. ƏLİYEV DÖVLƏT QURUCULUĞU MODELİ VƏ KƏNDİN SOSİAL TRANSFORMASİYASİ

Zaman ən böyük hakimdir, - deyirlər. Siyasi liderlərin gördükləri bütün işlər, atdıqları taleyüklü addımlar, apardıqları islahatlar, illər ötdükcə həyatın sınağından çıxır, tarixin obyektiv və ədalətli qiymətini alır.

Ötüb keçən günlər bizi ulu öndər Heydər Əliyev siyasi dühasının qurub yaratdığı müstəqil dövlətin ilk dövrlərindən uzaqlaşdırdıqca, aparılan sosial-iqtisadi və siyasi kursun necə əzəmətli və qüdrətli olması öz təsdiqini hər addımda tapır. Bu danılmaz həqiqətin təsiri altında biz dahi şəxsiyyətin irsinin dərindən və ətraflı öyrənilməsinin vacibliyini bir daha dərk edirik.

Cəmiyyətin və sosial toplumun siyasi şüurunun yeniləşməsi prosesi əsasən təkamül yolu ilə aparılır. Bunu nəzərə alsaq, o zaman bir daha aydın olar ki, Heydər Əliyev hakimiyyətinin ölkənin ayrı-ayrı regionlarının və təbəqələrinin inkişafında, onların formalaşmasında misilsiz xidməti olmuşdur. Odur ki, Heydər Əliyevin elitar bir lider olaraq həmin dövrdə apardığı böyük quruculuq işlərinin müxtəlif mərhələlərinə nəzər salmağa, o dövrə elmi-praktik baxımdan nüfuz etməyə borcluyuq.

Bu məqalədə Azərbaycan kəndinin son 40 ilə yaxın bir müddətdə inkişafı, sosial problemlərinin, kataklizmlərin çözülməsi və həlli yolunda aparılan genişmiqyaslı islahatları, böyük yaradıcılıq işlərini siyasi biliklər prizmasından bir sıra faktlarla təhlil etməyə, onları üzə çıxarmağa çalışmışıq.

## Elmi-nəzəri baxışlar barədə bir neçə söz

Siyasi dəyişikliklər nəzəriyyəsinin geniş bir istiqaməti olan tranzitologiyanın daha mükəmməl işlənməsinə ötən əsrin ortalarında başlanılmışdır. Bu nəzəriyyənin mərkəzi anlayışı olan “siyasi keçid” avtokratik, totalitar və avtoritar rejimlərdən demokratik idarəetmə üsulları nəticəsində meydana gələn sosial və institusional dəyişikliklər deməkdir. Geniş mənada bu anlayışa inqilabi formadan-təkamül formasına, müasir formadan-ənənəvi formaya kimi tarixi keçid prosesləri daxildir.

Siyasi tranzitologiyanın elmi istiqamət kimi çox uzun bir tarixi vardır. Politoloji keçid ideyalarına hələ Aristotel və Polibi, Makiavelli və Morun yazılarında rast gəlmək olar. Ancaq K.Marks və A. de Tokvilini müasir tranzitologiya konsepsiyasının baniləri kimi XVIII əsrdən XIX əsrin sonuna qədər Fransadakı inqilabi dəyişikliklər və siyasi transformasiya proseslərini elmi əsərlərində mümkün qədər araşdırıb təhlil etmişlər. Buna baxmayaraq tranzitologiya nəzəriyyəsini qərb politoloqları ancaq ötən əsrin 70-ci illərindən etibarən yenidən konseptual baxımdan təkmilləşdirməyə başladılar.

Bu metodoloji layihənin əmələ gəlməsi daha çox tənqidi təhlil və siyasi modernizm nəzəriyyəsindəki çatışmazlıqların aradan qaldırılması səyləri ilə bağlıdır. Demokratik keçid modelinin işlənməsinə ilk dəfə tanınmış politoloq D.Rastou cəhd etmişdir. O, genetik və funksional yanaşmanın fərqləri vasitəsi ilə qeyd etmişdir ki, bütövlükdə demokratiyaya keçid iki qarşılıqlı amilin-milli birliyin səviyyəsi və əsas sosial qüvvələrin siyasi

mübarizəsinin mövcud olduğu mühitdə həyata keçirilir.

İki ölkənin - İsveçin (1890-1920-ci illər) və Türkiyənin (1940-1960-cı illər) demokratik keçidinin müqayisəli təhlili əsasında Rastou bu ardıcıl inkişafı üç mərhələyə ayırmışdır:

1) münaqişənin güclənməsi, əsas sosial qüvvələr və koalisiya arasında mübarizənin "**hazırlıq**" mərhələsi;
2) əsas amillər arasında "dahi kompromiss" düsturunun işlənməsinin "**qərarın qəbul olunması**" mərhələsi;
3) insanların yeni münasibət formalarının təsdiq olunmasının "**möhkəmlənmə**" mərhələsi.

Birinci mərhələyə aid xüsusiyyətlər daha çox kəndlərdə müşahidə olunur və əyalətləri əhatə edir. Burada fermerlərin və kənd əhalisinin siyasi mübarizələrdə, cəmiyyət dəyişikliklərində mühüm rolu danılmazdır. İkinci və üçüncü mərhələlər isə əsasən şəhərdə gedən transformasiya proseslərinə şamil olunur.

Transformasiya prosesləri kənd şəraitində kəskin antoqonizm və kataklizmlərlə müşahidə olunur. Ən qədim tarixi mərhələlərdən bu günə kimi ölkələrin iqtisadiyyatının və sosial durumunun formalaşmasında kənd həlledici rol oynayıbdır. Bu baxımdan əyalətdə gedən tranzitologiyaya aid tendensiyaların öyrənilməsi və idarə olunması xüsusi əhəmiyyət kəsb edir.

Kənddə gedən yeniləşmənin ayrı-ayrı mərhələlərində, bütün münaqişələrin mahiyyətində əhalinin güzəranı və rifahı ön plana çəkilirdi. Hələ eramızdan yüz illər öncə Platon və Aristotelin əsərlərində formasiyalararası keçid məsələlərinə toxunulmuş, kənd və şəhər əhalisi üçün yarana biləcək sosial və iqtisadi fəsadlar proqnozlaşdırılmışdır. Nəhayət XX əsrin 60-cı illərində SSRİ dövlətinin başçısı N.S.Xruşovun kəndlə şəhər arasındakı fərqin götürülməsi ilə bağlı siyasəti də son nəticədə torpaqla bağlı əhalinin dolanışığının yaxşılaşdırılmasına yönəlmişdi.

Bu ali məqsədlərin bir qismi xəyal olaraq qalmış, digər qismi yarımçıq həyata keçirilmiş, bəzi proqramların gerçəkləşməsi isə yüz illərdən sonra mümkün olmuşdur.

## Yarım əsrin hökuməti kəndə üz tutur

Ulu öndərimiz Heydər Əliyev Sovet hökumətinin ilk illərində o dövlətin ucqar bir guşəsində - Naxçıvanda dünyaya göz açmış, böyüyüb ərsəyə çatmışdı. Ona kənd əhalisinin qayğı və istəkləri yaxşı tanış idi.

Məhz bu səbəbdən 1969-cu ilin iyun ayında Azərbaycan Kommunist Partiyasının rəhbəri seçilən Heydər Əliyev həmin ilin avqustunda keçirdiyi ilk plenumunda respublikada sosial-iqtisadi inkişafın və siyasi-mənəvi durumun sağlamlaşmasının bütün aspektləri ilə yanaşı kənd və onun əhalisinin, kökündən dəyişməsi məsələlərini ön plana çəkdi.

Partiya lideri kənddə sosial dəyişikliklərin bünövrəsini aqrar sahədəki sıçrayışlı inkişafın təmin edilməsində görürdü. Buna nail olmaq üçün isə kənd təsərrüfatına kapital qoyuluşunun kəskin surətdə artırılmasının vacibliyi ortaya çıxırdı. Qarşıya qoyulan məqsədin reallığa çevrilməsi ancaq SSRİ dövlətinin büdcəsindən asılı idi.

Heydər Əliyev tutarlı arqumentlərlə, təkidli müraciətləri və şəxsi nüfuzu ilə Sov. İKP MK-nın Azərbaycan kəndinə də üz tutmasına nail oldu. Onun şəxsən hazırladığı layihələr

əsasında Sovetlər İttifaqının rəhbər idarəetmə strukturlarının onlarla qərarı, qətnaməsi və sərəncamları qəbul edildi. Bununla da respublikamıza külli miqdarda maliyyə vəsaitləri, mal və materiallar, maşın və avadanlıqların axını başladı.

Heydər Əliyevin təşəbbüsü ilə torpağın ən çox mənfəət gətirdiyi sahələrdən biri olan üzümçülük və şərabçılıq Azərbaycanda inkişaf etdirilməyə başlandı. O, eyni zamanda kənddə infrastrukturun formalaşması, məktəb və xəstəxanaların inşası, yol tikintisi, yaşayış məntəqələrinin qazlaşdırılması və sair məqsədlərə gözlənildiyindən qat-qat çox vəsait yönəldilməsinə nail oldu.

Respublikanın Cənub bölgəsi Ümumittifaq bostanına çevrilmişdi. Rusiya şəhərlərinə göndərilən meyvə-tərəvəz məhsullarından külli miqdarda gəlir əldə olunurdu. Kənd əhalisinin güzarını yaxşılaşır, yüzlərlə sosial problem öz həllini yerindəcə tapırdı.

Təkcə üzümçülük və şərabçılıqdan qazanılan vəsaitlər milli gəlirimizin yarıdan çoxunu təşkil edirdi. İş o yerə gəlib çatmışdı ki, kənd əhalisinin orta aylıq pul gəlirləri şəhərdə çalışanların məvaciblərini dəfələrlə üstələyirdi.

On üç il müddətində Heydər Əliyev Azərbaycan kəndinin yüksəlişi ilə bağlı ardıcıl, sistemli və çox səmərəli işlər gördü. Moskvada SSRİ Nazirlər Kabinetində tutduğu çox məsul vəzifədə olanda belə Heydər Əliyev əsl azərbaycanlıya məxsus bir təəssübkeşliklə respublikanın kəndlərini unutmur, regionlarda tikinti-abadlıq və quruculuq işlərinə geniş vüsət verən layihələrin plana salınmasına yaxından kömək edirdi.

## Ölkənin tənəzzüllə nəticələnən ağrılı keçid yaşamı

SSRİ-nin "novator" başçısı M.Qorbaçovun başabəla yenidənqurma siyasəti kəndlərə, insanların illər boyu bərəkət gətirdiyi torpaqlara böyük zərbələr vurdu. Hektarlarla üzüm bağları, çay plantasiyaları yerlə-yeksan edildi. Tərəvəzçilik, bostançılıq və subtropik meyvələrin istehsalı da əvvəlki səmərəsini vermirdi. Bütün bunlar sosial problemlərin daha da dərinləşməsinə səbəb olurdu.

Sovetlər birliyinin dağılması, milli dövlətlərin müstəqillik qazanması ilk dövrlərdə heç də fəsadlarsız ötüşmürdü.

Rusiya tərəfindən ölkəmizə qoyulan iqtisadi embarqo, kənd təsərrüfatı məhsullarının ən böyük bazarının üzümüzə bağlanması və digər səbəblər Azərbaycan kəndini iflic vəziyyətinə salmışdı. Ölkə ərazisinin 20 faizinin erməni təcavüzkarları tərəfindən işğalı, bir milyona yaxın qaçqın və məcburi köçkünün öz yurd-yuvalarından didərgin düşməsi və əsasən kənd bölgələrində məskunlaşması onsuz da ağır vəziyyətdə yaşayan insanları yeni məşəqqətlərə düçar etdi.

"Səriştəsiz bəylər" idarəetmə sistemini kökündən dağıtdılar, istehsalı bərbad hala saldılar. Onlar maliyyə əsası olmayan populist sosial müdafiə elementlərinə üstünlük verərək, ölkənin büdcəsini kəskin defisit uçurumuna yuvarladılar.

Bunun nəticəsində Azərbaycanda XX əsrin 90-cı illərinin əvvəllərində orta nominal əmək haqqı MDB məkanındakı bütün respublikalarda olduğundan aşağı düşdü və 14,1 ABŞ dolları təşkil etdi.

Kəndlərdə mənzil tikintisi demək olar ki, tamamilə dondurulmuşdu. 1993-cü ildə hər doğulan min uşağa görə ölüm hadisəsi 28,2 nəfər idi. Müqayisə üçün qeyd edək ki, 2006-cı ildə bu rəqəm artıq 9,2-yə enmişdi. Həmin dövrdə bütün doğuşların 70-i ana

ölümü ilə nəticələnirdi.

Ağır sosial durum cəmiyyətin əsası olan ailə institutunun formalaşmasına da mənfi təsir göstərmişdi. Ailə quranların sayı bütün dövrlərdə olduğundan iki dəfə azalaraq 40 min nikaha enmişdi.

Həmin dövrdəki ağır yaşayış Azərbaycanda kənd əhalisinin xarici miqrasiyasında xoşagəlməz tendensiyalar yaratdı. 1990-cı ildə Azərbaycandan gedənlərin sayı rəsmi rəqəmlərdə 138 min nəfər təşkil edirdisə, 2005-2006-cı illərdə bu rəqəm min nəfəri belə ötməmişdir.

## Transformasiya prosesləri və qanunvericilik

Bir iqtisadi siyasi sistemdən digərinə keçid özünü köklü surətdə hüquqi normativ bazanın yeniləşməsi ilə şərtləndirir.

1995-ci ildə Müstəqil Azərbaycanın Konstitusiyasında insan hüquq və azadlıqlarının təsbit olunması, iqtisadiyyatın liberallaşması, xüsusi mülkiyyətə rəvac verilməsi kənddə inqilabi dəyişikliklərin bünövrəsini qoydu.

Belə bir vaxtda ulu öndərimizin qanunvericilik təşəbbüsü qaydasında "Torpaq İslahatları haqqında" Qanun layihəsini Milli Məclisə təqdim etməsi, sənədin 16 iyul 1996-cı ildə ali qanunverici orqanda qəbul olunması, ən nəhayət həmin ilin avqustunda qüvvəyə minməsi ölkə tarixində çox mühüm hadisəyə çevrildi. Bu ona gətirib çıxardı ki, ölkədə 1,64 milyon hektar torpaq sahəsi 870 min ailənin xüsusi mülkiyyətinə verildi.

Milli Məclis tərəfindən son illər Azərbaycan kəndinin simasının dəyişməsinə əhalisinin güzəranının yaxşılaşmasına xidmət edən 50-dən çox mütərəqqi qanun qəbul edilmişdir. Torpaq, Su, Meşə məcəllələri, taxılçılıq, üzümçülük və şərabçılıq, çayçılıq, tütünçülük və tütün məmulatları haqqında qanunlar bu qəbildəndir.

Ölkədə Demokratik cəmiyyətin ümumi tələblərinə uyğun şəkildə formalaşan dövlət quruculuğunda kənd üçün xarakterik olan yerli özünüidarəetmə sisteminin yaradılmasına da ehtiyac duyulurdu. Heydər Əliyev kənd əhalisinin xoşbəxt güzəranına təminat yaradan geniş fəaliyyət proqramının həyata keçirilməsi yolunda yerli özünüidarəetmənin hüquqi əsaslarını müəllifi olduğu Konstitusiyada təsbit etdi. Bələdiyyələrin hüquqi statusu müəyyənləşdirilərək 1999-cu ildə ilk seçkilər keçirildi. Bu qurumların fəaliyyətinin tənzimlənməsi üçün sonradan onlarla sivil qanunlar qəbul edildi.

Hazırda 2620 kənd bələdiyyəsində 20 minə yaxın bələdiyyə üzvü fəaliyyət göstərir ki, onlar da kəndin sosial qayğılarının həlli məsələlərində və onun müasirləşməsində yaxından iştirak edirlər.

Hüquqi bazanın möhkəmlənməsi ilə yanaşı keçid dövründə beynəlxalq əməkdaşlıq da xüsusi vüsət alırdı. Hazırlanan və həyata keçirilən birgə proqramlar özünün müsbət nəticələrini verməyə başlamışdı.

BMT-nin ixtisaslaşmış qurumları – Dünya Bankı, Kənd Təsərrüfatı və Ərzaq Proqramı (FAO), Kənd Təsərrüfatı İnkişaf Fondu (İFAD) və digər strukturlarla birgə hazırlanan "Dağ və yüksək ərazilərin inkişaf etdirilməsi", "Şimal-Şərq İnkişafı", "Kənd investisiyaları" və başqa layihələr yüzlərlə əmək tutumlu iş yerlərinin yaranmasına xidmət edir.

## Regionlar sosial inkişafın yeni mərhələsində

Azərbaycan kəndinin inkişafı bir də onunla əlamətdardır ki, ulu öndərimiz Heydər Əliyevin və möhtərəm prezidentimiz İlham Əliyevin rəhbərliyi altında respublikamızda "lider-xalq, xalq-lider" kimi möhkəm tandem yaranmışdır.

Tarixi həqiqətlərin axarında zaman onu da təsdiq edir ki, Heydər Əliyevin bilavasitə xalqa xidmət edən çox düzgün, müdrik və uzunmüddətli siyasi kursunun bir bölümü də Azərbaycanın regionları, onun kəndləri ilə bağlıdır.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin 2003-cü ildəki seçki öncəsi təbliğat kampaniyasını məhz rayonlardan, kəndlərdən başlaması da təsadüfi deyildi.

O zaman kənd əhalisinin sosial sifarişləri, prezidentimiz tərəfindən siyasi texnologiyalarda sınaqdan çıxmış "maraqların aqreqasiyası" metodu ilə dəqiq müəyyənləşdirilmişdi.

Beş ilə 600 min iş yerinin yaradılması ideyası dəqiq əsaslandırmalarla, real perspektivlər nəzərə alınmaqla ortaya çıxarılmışdı. Seçkiqabağı platformada daha çox əmək tutumlu müəssisələrin açılmasına, xüsusən aqrar bölmədə işlərin canlandırılmasına diqqət yetirmək nəzərdə tutulurdu.

Hörmətli Prezidentimizin Dövlət başçısı kimi fəaliyyətə başladığı elə birinci aylarda "Regionların sosial iqtisadi inkişafı" Dövlət Proqramı qəbul edildi. Burada ilk dəfə çox düzgün və konkret olaraq on bölgə müəyyənləşdi. Onların hər birində özünəxas coğrafi, iqlim, əmək şəraiti, istehsalat ənənələri, təbii ehtiyatlar və digər məziyyətlər nəzərə alınmaqla görüləcək işlərin proqramı təsdiq olundu.

Azərbaycan kəndi bundan sonra arxada qalan XX əsrin 70-ci illərinin intibah dövrünün dirçələn həyatını, elə bil, yenidən daha yüksək keyfiyyətlə yaşamağa başladı. Bu proqramın həyata keçirilməsi ilə bağlı onlarla hüquqi-normativ akt qəbul olundu. İcra strukturları daha dəqiq və konkret iş planları müəyyənləşdirdilər, maliyyə orqanları və kredit təşkilatları kəndə vəsait ayrılmasına üstünlük verdilər.

"Yeniləşən Azərbaycana-yeni məktəblər" Proqramı ilə hazırda bölgələrdə 320-dən çox müasir, kompüterlərlə təchiz edilən ümumtəhsil tədris ocaqları tikilib istifadəyə verilmişdir. Məktəblərin 250-si bilavasitə kənd yerlərində inşa olunmuşdur.

30-dan çox region mərkəzində yüksək tələblərə cavab verən idman qurğuları, olimpiya kompleksləri ucaldılmışdır. Rayonlarda müasir tibbi avadanlıqlarla təchiz olunmuş 8 diaqnostika mərkəzi inşa edilmişdir. Bölgələrdə 5 modul elektrik stansiyası quraşdırılmış, Lənkəran-Lerik, Masallı-Yardımlı və digər ucqar dağ rayonları, hətta Quba rayonunun Xınalıq kəndi üçün möhkəm asfalt örtüklü yol çəkilmişdir.

Əmək tutumlu iş yerlərinin yaradılmasından ötrü əvəzsiz prioritetlərdən biri kimi turizmin perspektivləri müəyyənləşdirildi. Ölkənin sahilyanı bölgələrində Xaçmaz-Lənkəran ərazisində, dağ rayonlarında bu proqramı həyata keçirmək üçün ilkin işlərə artıq başlanılmışdır.

Rayondaxili və kəndara yollarının çəkilməsi və təmiri burada yaşayanları doğma yurdlarına daha möhkəm bağlayır.

Son statistik məlumatlara görə ötən iki il ərzində miqrasiyanın şəhərə axın tendensiyası hiss olunan dərəcədə dəyişmiş və bu proses geriyə, kəndə dönməklə əvəz olun-

muşdur.

Sevindirici haldır ki, ölkə Prezidenti müəyyənləşdirdiyi proqramların həyata keçirilməsinə bilavasitə özü nəzarət edir, ən ucqar rayonlarda belə dəfələrlə olur, kənd əhalisinin qaldırdığı bütün problemlərin həlli üçün yerindəcə, operativ tapşırıqlar verir.

Son üç ildə müxtəlif bölgələrin inkişafına dair əlavə 8 xüsusi sərəncamın imzalanmasını da bu səmərəli tədbirlərin nəticəsi hesab etmək olar.

Kənddə gedən böyük sosial quruculuq işlərinə aydınlıq gətirmək üçün yalnız 2006-cı ildə işə düşən 407 emal müəssisəsini, 722 tikinti strukturunu, 500-dən çox aqrar qurumu, 1200-ə qədər ticarət və xidmət obyektlərini qeyd etmək yerinə düşərdi.

İnsanların torpağa bağlılığının bariz nümunəsi elə həmin ildə kəndlərdə 9 milyon kvadrat metrlik yaşayış evlərinin tikintisidir. İndi kənddə 2615 kəndli fermer təsərrüfatı, 1450 kiçik emal strukturu, 1364 kollektiv müəssisə fəaliyyət göstərir, 862 min 630 ailə onlara ayrılan pay torpaqlarında əkinçiliklə məşğul olur, mal-qara saxlayırlar. Hazırda kənd adamlarının xüsusi mülkiyyəti olan bu təsərrüfatlarda 2,5 milyon baş qaramal, 8 milyona yaxın qoyun-quzu yetişdirilir. Sadalanan göstəricilər 1994-cü ildəkindən iki dəfə çoxdur.

Təkcə Lənkəranda Prezidentimiz 2006-cı ilin avqust ayında bir gündə Diaqnostika mərkəzinin, Süd zavodunun, yüz nəfər işçi üçün nəzərdə tutulan tikiş fabrikinin, "Xəzər" futbol klubunun dünya standartlarına uyğun stadionunun, yenidən qurulan mərkəzi meydanın, turistlər üçün etnoşəhərcik kimi obyektlərin açılışında iştirak etdi. Bu obyektlər dövlət başçısında xoş təəssüratlar oyatdı. Prezidentimiz rayon sakinləri ilə görüşdə Lənkəranda eyni zamanda beynəlxalq hava və dəniz limanlarının inşasından və onlarla böyük obyektlərin tikintisindən söz açaraq dedi:

*"Ölkəmizin hər yerində tikinti-quruculuq işləri geniş vüsət almışdır. Kənd və rayon mərkəzlərimiz günü-gündən gözəlləşir. Lənkəran daha sürətlə, daha yeni keyfiyyətdə və müasir formada, həm də çox qısa müddətdə tanınmaz dərəcədə dəyişir".*

Müşahidələrimiz və elmi təhlillər bir daha onu göstərir ki, ümummilli liderimiz Heydər Əliyevin regional siyasəti ölkə daxilində sosial müdafiənin və sosial təhlükəsizliyin təmin olunmasında ən vacib şərtlərdən biri kimi qalmaqdadır.

İndi möhtərəm Prezidentimiz İlham Əliyev cənabları həmin siyasətin varislik və davamlılıq prinsiplərini fəaliyyətinin baş xətti kimi ardıcıl olaraq daha da təkmilləşdirir. "Regionların sosial iqtisadi inkişafı" Dövlət Proqramının 3 illiyinə həsr olunmuş yığıncaqda ölkə başçısı bunu bir daha dəqiq və dürüst ifadə etdi:

*"Bu Proqramın icrası nəticəsində və dövlət tərəfindən verilən bütün imtiyazlar, kreditlər, investisiya şirkətinin, "Aqrolizinq"-in yaradılması, texnikanın alınması, kəndlilərə kübrə və yanacaq almaq üçün 80 milyon manat həcmində vəsaitin ayrılması müasir kəndin inkişafına çox böyük təkan verəcəkdir".*

Müasir Azərbaycan kəndində gedən inkişaf və yeniləşmə ilə müşahidə olunan sosial transformasiya proseslərinin bundan sonra da səmərəli nəticələr verəcəyinə adamlarımız möhkəm inanırlar. Bu ondan irəli gəlir ki, uzaqgörən Heydər Əliyev Dövlət quruculuğu modelinin mayası zaman-zaman dəyişən real gerçəkliklərə söykənir.

Dünyaya inteqrasiya edən bir dövlətdə kənd məhz belə bir idarəetmə kursu ilə irəli gedə və yeni-yeni uğurlar qazana bilər. Bu siyasətin yüksələn xətlə icrası isə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin düşünülmüş ideyaları ilə yeni keyfiyyətdə, daha

surətlə, daha geniş miqyasda, daha cəsarətlə həyata keçirilməkdədir.

**Recebli H.**

## H.ALIEV MODEL OF STATE ORGANIZATION AND SOCIAL TRANSFORMATION OF THE VILLAGE

### *S U M M A R Y*

In the article the development, the social problems, the reforms led with the purpose of the solution of cataclysms, in Azerbaijani village for the last 40 years reveal.

For this purpose is given a brief viewpoint in history of development of political transitology, as one of the large directions of the theory of political changes.

At different stages of reformation, proceeded in a province, in a basis of all conflicts, the question on improvement of life conditions and well-being of the population was put forward on the foreground.

But, unfortunately, disintegration of the USSR and the economic blockade which has arisen in connection with this and many other reasons have led to "paralysis" of the Azerbaijani village.

Acknowledgement of the human rights and liberties, liberalization of economy, the statement of a private property in the Constitution of Independent Azerbaijan as of 1995 have served as the base of revolutionary changes in the Azerbaijani province.

National leader Haydar Aliyev, being born in a province, was perfectly familiar with cares and needs of agricultural population. In this connection, during his whole political career he always paid fixed attention to the solution of social problems in provinces.

Our people trust, that the development which is taking place in modern Azerbaijani village and processes of social transformation in the further will yield the fruitful results.

**Раджабли Х.**

## РОЛЬ ГЕЙДАРА АЛИЕВА В МОДЕЛИРОВАНИИ ГОСУДАРСТВЕННОГО СТРОИТЕЛЬСТВА И СОЦИАЛЬНАЯ ТРАНСФОРМАЦИЯ СЕЛА

### *Р Е З Ю М Е*

В статье раскрывается процесс развития, социальные проблемы, реформы, проведенные с целью решения катаклизмов, в азербайджанской деревне за последние 40 лет.

С этой целью дается краткий ракурс в историю развития политической транзитологии, как одной из крупных направлений теории политических изменений.

На разных этапах реформации, протекавшей в провинции, в основе всех конфликтов на первый план выдвигался вопрос улучшения условий жизни и благосостояния населения.

Но, к сожалению, распад СССР и экономическая блокада, возникшая в связи с этим, и многие другие причины привели к «параличу» азербайджанской деревни.

Подтверждение человеческих прав и свобод человека, либерализации экономики, утверждение частной собственности в Конституции Независимого Азербайджана 1995-ого года послужили фундаментом революционных изменений в азербайджанской провинции.

Общенациональный лидер Гейдар Алиев, родившись в провинции, был прекрасно знаком с заботами и нуждами сельского населения. В этой связи, во всей своей политической карьере он всегда уделял пристальное внимание решению социальных проблем в провинциях.

Наш народ верит, что развитие, имеющее место в современном азербайджанском селе и процессы социальной трансформации и в дальнейшем будут давать свои плодотворные результаты.